# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 yanvar 2025-ci il, şənbə
№ 005 (6833)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!




# Vaxt gəlib ki...

Bax səh. 2

# Sosial cəmiyyət quruculuğu naminə

Bax səh. 3




# Cənubi Qafqaz - imkanlar, hədəflər, perspektivlər...

Bax səh. 6

## Azərbaycan Aİ ailəsinə üzv olmağa can atmır

2025-ci ilin qlobal münasibətlər sistemində mühüm dəyişikliklərlə müşayiət olunacağı proqnozlaşdırılır. Bu mənada beynəlxalq aləmin özünü "yeniləməsi" prosesi təbii qarşılanmalıdır. Xüsusilə, ötən dövrdə beynəlxalq hüquqa nəzərən qeyri-adekvat mövqe tutan təşkilatlar və dövlətlər xarici siyasət kurslarına, yanaşmalarına və qərarlarına diqqət yetirməlidirlər - əks halda, onların ətrafında formalaşan mənfi imic get-gedə daha da güclənəcək.

Azərbaycanın yürütdüyü milli maraqlara əsaslanan, müstəqil siyasət kursu ümumən Cənubi Qafqaz coğrafiyasına yeni bir sima qazandırıb. Bu isə yeni beynəlxalq münasibətlər sisteminə fərqli şəkildə daxil olmağı planlaşdıran Cənubi Qafqazın maraqlı qlobal güclərin bölgəyə fokuslanmış və təzyiqə əsaslanan müdaxilələrini fərqli statusla qarşılaması ilə nəticələnir. Artıq güc rıçaqlarından istifadə etməklə bölgədə "siyasi tərəzi"nin tərəfini ağırlaşdırmaq mümkün...

Bax səh. 3

## YAP bu seçkilərin də qalibi olacaq

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nərimanov rayonu, Nərimanov bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev ölkəmizdə yerli özünüidarəetmənin təkmilləşdirilməsi üçün görülən işlərdən danışıb. O, YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, xalqın etimadını layiqincə doğruldan Yeni Azərbaycan Partiyası növbəti bələdiyyə seçkilərinə yeni reallıqlar və çağırışlar fonunda qələbə əzmi ilə qatılıb: "Bu zamana qədər çoxsaylı nailiyyətlərə imza atan YAP bu seçkilərin də qalibi olacaq".

Bələdiyyə üzvlüyünə namizədlər Təmraz Tağıyev, Kifayət Xudaverdiyeva, Nizami Babaşov, İradə Qarayeva, Tamerlan Əkbərov, Ülkər Piriyeva və digərləri çıxış edərək bələdiyyələrin sosial məsuliyyətinin, yerli özünüidarəetmədə vətəndaşların rolunun, hesabatlılıq...

Bax səh. 4

## Milli inkişafın Azərbaycan nümunəsi dünyada örnəkdir

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Yasamal rayonu, Yasamal bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, milli inkişafın Azərbaycan nümunəsi dünyada örnəkdir. O, bələdiyyələrin fəaliyyətinin yerli məsələlərin effektiv həlli baxımından önəminə diqqəti cəlb edib. B.Nəbiyev diqqətə çatdırıb ki, yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əhaliyə göstərilən xidmətlərin keyfiyyəti artacaq.

Seçki qərargahının üzvü Həbib Mirzəyev, təşviqat qrupunun üzvü İlhamə Qəsəbova və bələdiyyə üzvlüyünə namizəd Tahir Məmmədov YAP tərəfindən irəli sürülən namizədlərin seçkilərdə xalqımız tərəfindən...

Bax səh. 5

## 34 yaşlı "Səs"!

Bu gün respublikanın çoxsaylı mətbu orqanları arasında özünəməxsus dəst-xətti ilə seçilən "Səs" qəzetinin 34 yaşı tamam olur. Qəzet Azərbaycan mətbuatının inkişafında, söz və fikir azadlığının müdafiəsində, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında öz sözünü deyə bilib.

Müstəqilliyimizin bərpasından 9 ay öncə fəaliyyətə başlayan "Səs" qəzetinin yaranması, keçdiyi yolu xarakterizə etmək və digər sualları cavablandırmaq məqsədi ilə qəzetin baş redaktoru Bəhruz Quliyevlə söhbətləşdik.

**-"Səs" qəzetinin yaranması hansı zərurətlə bağlı olub?**

- "Səs" qəzeti müstəqil Azərbaycan mətbuatının ilk mətbu orqanlarından biridir. "Səs" ictimai-siyasi qəzet kimi 1990-cı ilin noyabrında "Əlincə" Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçib, 1991-ci il yanvarın 11-dən dərcinə başlanıb. Yəni qəzetin tarixi Azərbaycanın müstəqillik tarixindən bir neçə ay əvvələ təsadüf edir. Qəzet Heydər Əliyevin ideyalarının cəmiyyətə çatdırılması kimi müqəddəs missiyanı yerinə yetirib, bu qəzetin ətrafında Ulu Öndəri sevənlər cəmləşib. Bütün zamanlardakı fəaliyyəti dövründə qəzetimiz sağlam ideyanın cəmiyyətə çatdırılması missiyasını şərəflə yerinə yetirib. O dövrdə Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun ideyalarının cəmiyyətə...

Bax səh. 6



# "Binokl diplomatiyası" başa çatır...

Bax səh. 7



# Avropanı bürüyən böhranlar

Bax səh. 7



# Litva Cənubi Qafqazda davamlı sülhü və inkişafı dəstəkləyir

## Yeni səfir Prezidentin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kestutis Vaşkeleviçusun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı 2022-ci ildə Litva Prezidentinin ölkəmizə, 2023-cü ildə isə özünün Litvaya rəsmi səfərlərini, ötən ilin sonunda Gitanas Nauseda ilə telefon danışığını, həmçinin bundan əvvəlki dövrlərdə Litvanın dövlət başçıları ilə təmaslarını məmnunluqla xatırladı, bunların ikitərəfli münasibətlərin inkişafında vacib rol oynadığını qeyd etdi.

Səfirə Azərbaycanda fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, onun səfirliyi dövründə əlaqələrimiz daha da genişlənəcək, əməkdaşlığımızın möhkəmlənməsi üçün yeni imkanlar müəyyənləşdiriləcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən Kestutis Vaşkeleviçus Litva Respublikasının Prezidenti Gitanas Nausedanın səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Gitanas Nausedaya çatdırmağı xahiş etdi.

Səfir qeyd etdi ki, Litva Prezidenti onunla söhbəti zamanı Azərbaycanın oynadığı rolun önəmini vurğulayıb, ölkəmizlə əlaqələrin daha da möhkəmlənməsi istəyində olduğunu deyib, eyni zamanda, təyyarə qəzası ilə bağlı başsağlığını ifadə edib. Kestutis Vaşkeleviçus vurğuladı ki, Azərbaycan bu qəza zamanı xeyli sayda insanın həyatını xilas edən övladları ilə haqlı olaraq fəxr etməyə layiqdir.

Əlaqələrimizin tarixində ölkələrimizin və xalqlarımızın bir-birinin müstəqilliyini, azadlığını dəstəkləməsinin əhəmiyyətini qeyd edən səfir bunun rəmzi məna daşıdığını dedi. O, Azərbaycanın və Litvanın XX əsrin sonlarında müstəqil olmasından sonra ikitərəfli münasibətlərimizdə böyük inkişafa nail olunduğunu vurğuladı. Səfir qeyd etdi ki, Litva Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə dəstək verməyə hər zaman hazırdır.

O, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyi yüksək qiymətləndirdiklərini dedi, Litvanın Cənubi Qafqazda davamlı sülhü və inkişafı dəstəklədiyini vurğuladı.

Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Kestutis Vaşkeleviçus səfirlik fəaliyyəti dövründə münasibətlərimizin tarixində nümayiş etdirilmiş dostluq və həmrəylik ruhunda çalışacağını bildirdi.

Söhbət zamanı iqtisadiyyat, kənd təsərrüfatı və bərpaolunan enerji sahələrində əməkdaşlıq məsələləri də müzakirə edildi.

# Azərbaycan-Küveyt qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək

## Prezident İlham Əliyev Küveytin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Feysal əl-Mutairinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında çox fəal siyasi əlaqələrin genişləndiyini vurğulayaraq, Küveytə rəsmi səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev Azərbaycan-Küveyt qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi və bunun üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev Küveytin yüksək səviyyədə nümayəndə heyəti ilə COP29-da təmsil olunmasının və bu tədbir çərçivəsində Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən səfir Azərbaycan Prezidentinin qəbulunda olmaqdan böyük fəxr hissi keçirdiyini bildirərək, Küveyt Dövlətinin Əmiri Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabahın və Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabahın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə və Vəliəhdinə çatdırmağı xahiş etdi.

Səfir təyyarə qəzası nəticəsində həlak olanlarla bağlı bir daha Küveyt Əmirinin başsağlığını çatdıraraq, yaralananların tezliklə şəfa tapmasını arzuladı.

O, COP29-un yüksək səviyyədə təşkilinə və əldə olunmuş nailiyyətlərə görə Azərbaycana və dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı siyasi münasibətlərimizin çox yaxşı səviyyədə olması, iqtisadi, ticarət və sərmayə sahələrində əlaqələrin inkişafı, hökumətlərarası komissiyanın iclasının keçirilməsi və iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması məmnunluqla vurğulandı.

Azərbaycan ilə Küveytin beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlığına toxunuldu, ölkələrimizin daim bir-birini dəstəklədiyi bildirilərək, bu xüsusda BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, OPEC+ formatında əməkdaşlıq qeyd olundu. Eyni zamanda, Azərbaycanın Ərəb Dövlətləri Liqası və Körfəz Əməkdaşlıq Şurası ilə də əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyi bildirildi.

Görüşdə son dövrlərdə qarşılıqlı turizmin və insanlararası təmasların daha da genişlənməsi məmnunluqla qeyd olundu.

# Vaxt gəlib ki...

## Ermənistan şərait yaratsın, Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına qayıda bilsinlər

Bu günlərdə yerli televiziya kanallarına geniş müsahibə verən Prezident İlham Əliyev diqqəti Azərbaycanın ardıcıllıqla həyata keçirdiyi uğurlu siyasətin prioritet məsələlərinə çəkib. İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə müstəqil Azərbaycanın gündəliyinin əsas məsələsi ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi idi. 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq artıq bu hədəflərimizə çatmışıq.

Yeni mərhələdə qarşımızda dayanan əsas hədəflərdən biri isə soydaşlarımızın Qərbi Azərbaycana ləyaqətli qayıdışının təmin edilməsinə nail olmaqdır. Hazırda bu məsələ cəmiyyətimizi səfərbər edən əsas ümummilli ideyaya çevrilib. "...Vaxt gəlib ki, Ermənistan şərait yaratsın, Qərbi azərbaycanlılar öz dədəbaba yurdlarına qayıda bilsinlər", - deyə Prezident İlham Əliyev vurğulayıb.



Bu gün mətbuatda, ictimai müzakirələrdə təxminən 300 min soydaşımızın tarixi yurd yerlərinə - Qərbi Azərbaycana qayıdış hüququndan bəhs olunur. Ancaq müsahibədə də bildirldiyi kimi, bütövlükdə bəhs olunan coğrafiyadan qovulmuş və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların, onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur. Həmin insanlar XX əsrdə böyük fəsadlara gətirib çıxaran amansız deportasiyalar nəticəsində öz yurd-yuvalarından çıxarılıblar. Onlar 1918, 1920-1921, 1948-1953 və 1987-1991-ci illərdə olmaqla doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalıblar. O cümlədən 1920-ci ilin noyabrında Qərbi Zəngəzur keçmiş ittifaqın məkrli uzaq planlarına uyğun olaraq Azərbaycandan zorla qoparılıb və Ermənistana birləşdirilib. Bundan iki il əvvəl isə Azərbaycan Xalq Cümhuriyyəti tarixi şəhərimiz olan İrəvanı, necə deyərlər, Ermənistana bağışlayıb. Bir çoxları bu addımın ermənilərin ərazi iddialarının qarşısını almaq məqsədilə atıldığını bildirirlər. Ancaq tarix bu yanaşmanın səhv olduğunu təsdiqlədi. Təsadüfi deyildir ki, İrəvanın Ermənistana peşkəş edilməsi heç nəyi dəyişmədi və cəmi iki ildən sonra ermənilər Qərbi Zəngəzuru da Azərbaycandan qoparmağa nail oldular. Sonuncu deportasiyayadək indiki Ermənistan ərazisində 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə soydaşlarımız məskunlaşmışdılar . Onların hamısı cəmi 3 il ərzində yurd yerlərindən zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Ən acınacaqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycanda dağlıq zonada yaşamağa öyrəşmiş soydaşlarımızın yeni yaşayış ünvanları kimi bir qayda olaraq aran bölgələri seçilib ki, bu da adaptasiyanın çox ağır keçməsi ilə nəticələnib.

### XX əsrdə böyük fəsadlara gətirib çıxaran amansız deportasiyalar

Eyni zamanda, Qarabağda da xalqımıza qarşı cinayətlər törədilib. Yüz minlərə insanın taleyinə bu şəkildə qərar verilməsi humanizm dəyərlərinin tamam unudulması anlamına gəlir. Ermənistanın ilk üç prezidentinin soydaşlarımıza münasibəti faşist ideologiyasına əsaslanıb. Bir neçə gün bundan əvvəl mətbuatda Ermənistanın birinci prezidentinin açıqlamaları yayıldı. İndiyədək özünü "demokrat" imicində təqdim etməyə çalışan Petrosyan etnik təmizləmə, azərbaycanlıların yurd yerlərindən vəhşicəsinə qovulması ilə öyünür. Bütün bunları, o cümlədən də Xocalı soyqırımını göz önündə canlandırdıqda üzləşdiyimiz faciələrin miqyası barədə konkret təsəvvür yaranır. Biz qan yaddaşımıza yazılan tariximizdən ibrət götürməli və haqq mübarizəmizi axıradək davam etdirməliyik.

Soydaşlarımızın tarixi yurd yerlərinə qayıdışı məsələsinin banisi Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı hələ 10 il bundan əvvəl bu çağırışı ölkənin siyasi gündəliyinə gətirməyə nail olub. Belə ki, Onun tövsiyələri əsasında Azərbaycan alimləri elmi əsərlər yaratmağa başlamışlar. İrəvan xanlığı haqqında böyük elmi əsər yaradılıb, həmçinin tarixi xəritələr çap olunub, Qərbi azərbaycanlıların məskunlaşma tarixi, onların məişəti, həyat tərzi geniş şəkildə işıqlandırılıb. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra isə bu istiqamətdə fəaliyyətin fəal mərhələsinə start verilib.

Soydaşlarımızın qayıdış hüququ ilk növbədə tarixi ədalətə əsaslanır. Arxivlərdə XX yüzilliyin əvvəllərində çap edilmiş xəritələr var. Həmin xəritələrdən aydın şəkildə görünür ki, zamanında indiki Ermənistanın ərazisindəki yaşayış məntəqələrinin əksəriyyətinin adı Azərbaycan mənşəli olub. Sonradan məqsədyönlü siyasət aparılıb, toponimlərimiz eybəcər erməni adları ilə əvəzlənib. Prezident İlham Əliyev "Sevan gölü"nü nümunə gətirib. Tarixi xəritələrdə belə bir ada rast gəlinmir, sututarın adı "Göyçə gölü" kimi göstərilir. Biz yuxarıda Ermənistanın birinci prezidentinin faşist ruhlu açıqlamalarından bəhs etdik. O da etiraf edib ki, indiki Ermənistanın bir çox regionlarında azərbaycanlılar əksəriyyət təşkil ediblər. İndi zaman gəlib ki, tarixi ədalət bərpa olunsun. Ermənistan rəhbərliyi bu məsələdə öz məsuliyyətini anlamalı və soydaşlarımızın ləyaqətli şəkildə geri dönüşünə şərait yaratmalıdır. Bu, onların haqqıdır. Təəssüf doğuran haldır ki, N.Paşinyan və onun komandasında yer alanlar bu məsələni Azərbaycanın Ermənistana qarşı ərazi iddiaları kontekstində təqdim etməyə çalışırlar. Halbuki, ölkəmizin belə bir niyyəti yoxdur. Söhbət insan haqları məsələsindən gedir. "Mən hesab edirəm, yaxşı olardı ki, Ermənistanın baş naziri Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etsin. Bildiyimə görə, onlar İrəvana da getməyə hazırdırlar. Qəbul etsin, onların dilindən onların problemlərini eşitsin, dinləsin onları. Yəni, onlar oradan əsassız qovulmuşlar. Onların tam hüququ var ki, oraya qayıtsınlar", - deyə dövlətimizin başçısı vurğulayıb.

### Soydaşlarımızın tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququ

Eyni zamanda, insanların qayıdış hüququ beynəlxalq konvensiyalarda da təsbit olunub. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır.




### Beynəlxalq arenada səmərəli fəaliyyət

Qərbi Azərbaycan İcmasının ardıcıl fəaliyyəti nəticəsində soydaşlarımızın tarixi torpaqlarına qayıdışı məsələsinin beynəlxalq gündəliyə çıxarılması mühüm hadisədir. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin verdiyi məlumata əsasən, dünyanın bir çox ölkə və qurumlarına, siyasətçilərinə onlarla məktub və müraciətlər ünvanlanıb, icmanın 220-dən çox bəyanatı qəbul edilib. Bu gün Qərbi Azərbaycan İcmasının yeddi sənədi artıq BMT-nin rəsmi sənədi kimi bütün rəsmi dillərdə və beynəlxalq qurumun üzvü olan bütün dövlətlər arasında yayılıb. 2024-cü il dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfrans keçirilib. Bütövlükdə, 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarda inam yaradılıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycanın 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Bütün bunlar onu deməyə əsas verir ki, biz Qərbi Azərbaycana qayıdışa doğru inamla irəliləyirik və hədəfimizə çatacağıq. Prezident İlham Əliyev müsahibəsində beynəlxalq təşkilatlara da çağırış edib. ATƏT də bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidir. Biz Avropa Komissiyasından da mövqe gözləyirik. "Bundan sonra əlbəttə ki, bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar. Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz ABDULLAYEV***



# Azərbaycan Aİ ailəsinə üzv olmağa can atmır

## İlham Əliyev: Biz sizdən asılı deyilik, sizdən heç nə gözləmirik...

2025-ci ilin qlobal münasibətlər sistemində mühüm dəyişikliklərlə müşayiət olunacağı proqnozlaşdırılır. Bu mənada beynəlxalq aləmin özünü "yeniləməsi" prosesi təbii qarşılanmalıdır. Xüsusilə, ötən dövrdə beynəlxalq hüquqa nəzərən qeyri-adekvat mövqe tutan təşkilatlar və dövlətlər xarici siyasət kurslarına, yanaşmalarına və qərarlarına diqqət yetirməlidirlər - əks halda, onların ətrafında formalaşan mənfi imic get-gedə daha da güclənəcək.

### Aİ Ermənistanın tərəfini tutdu...

Azərbaycanın yürütdüyü milli maraqlara əsaslanan, müstəqil siyasət kursu ümumən Cənubi Qafqaz coğrafiyasına yeni bir sima qazandırıb. Bu isə yeni beynəlxalq münasibətlər sistemində fərqli şəkildə daxil olmağı planlaşdıran Cənubi Qafqazın maraqlı qlobal güclərin bölgəyə fokuslanmış və təzyiqə əsaslanan müdaxilələrini fərqli statusla qarşılaması ilə nəticələnir. Artıq güc rıçaqlarından istifadə etməklə bölgədə "siyasi tərəzi"nin tərəfini ağırlaşdırmaq mümkün deyil - xüsusilə, işğalçı Ermənistanın yaratdığı imkanlardan yararlanaraq bölgədə nüfuz dairəsi yaratdığını düşünənlərin həzin sonluğu göz önündədir. Bu sırada Avropa İttifaqının adı xüsusi çəkilməlidir - arxada qalan bir ildə Aİ konstruktiv olmayan addım və qərarları ilə yadda qalıb. Xüsusilə, Avropa Komissiyasının anti-Azərbaycan fəaliyyəti, qeyri-hüquqi müzakirələri, COP29-a qarşı aparılan kampaniya bunu deməyə əsas verir. Nəzərə alsaq ki, artıq AK-da yeni komanda formalaşır, münasibətlərin gələcək inkişafı da maraq kəsb edir. Aİ özünün köhnə "vərdişlərindən" əl çəkəcəkmi, yoxsa siyasət eynilə davam etdiriləcək - bu həm də, Aİ-Azərbaycan münasibətlərinin gələcək trayektoriyasını müəyyənləşdirəcək. Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində bildirib ki, Avropa Komissiyası ilə münasibətlərimizin necə inkişaf edəcəyini söyləmək çətindir: "Amma deməliyəm ki, ötən il məyusluqla dolu bir il oldu. Belə ki, məhz keçən il Avropa İttifaqı normallaşma prosesində birmənalı olaraq Ermənistanın tərəfini tutdu".

### Hər şey Azərbaycana münasibətdən asılı olacaq...

Aİ-nin Azərbaycana qarşı nümayiş etdirdiyi davranış birmənalı şəkildə ədalətsizdir. Ermənistanın silahlandırılmasında Avropa Sülh Fondu vasitəsilə oynanılan rol, Fransanın təhriki ilə əleyhimizə qəbul olunan qərarlar, Ermənistan ilə münasibətlərin normallaşması prosesində tutduğu mövqe quruma olan inamı və etimadı sarsıtdı - beləliklə də, Azərbaycan dövləti Aİ-ni ümumən normallaşma prosesindən kənarlaşdırdı.

Gələcək münasibətlərin inkişaf dinamikası isə daha çox Aİ-nin gələcək mövqeyindən asılı olacaq. Qurum ölkəmizlə səmimi münasibətlər qurmağa çalışacaqsa, ikitərəfli əməkdaşlığın beynəxalq hüquq və milli maraqlar çərçivəsində yürüdülməsinə öz töhfəsini verəcəksə, Bakının da mövqeyi adekvat olacaq. Müsahibəsində bu məsələyə toxunan dövlət başçısı bildirib ki, Azərbaycana və onun milli maraqlarına münasibət necə olacaq, bizim münasibət də elə belə də qalacaq. Əgər normal, konstruktiv olacaqsa, zənnimcə, biz səmərəli məcraya qayıda bilərik: "Ötən il Avropa İttifaqının əldə etdiyi nəticə ondan ibarət oldu ki, o, Azərbaycan-Ermənistan trekinin normallaşması prosesindən tamamilə kənarlaşdırıldı. Əgər Ermənistanın silahlandırılmasının və qondarma Sülh fondunun bundan sonra da davamı olacaqsa, bizim tərəfimizdən adekvat hərəkətlər ediləcək".

### Gəlin, yaxşı qonşular olaq, əməkdaşlıq edək...

Aİ-nin yeni tərkibi köhnə "ideoloji asılılıqdan" fərqlənmir - orada təmsil olunan insanların əksəriyyəti yenə də Azərbaycanafob əhval-ruhiyyədədirlər. Azərbaycan hər zaman bildirib ki, bizim Aİ üzvü olmaq kimi hədəfimiz yoxdur - bizim ailəmiz Türk dünyasıdır. Bununla belə, müasir dünyanın çağırışları və standartları daxilində əməkdaşlıq mümkündür. Azərbaycan artıq Avropanın bir neçə ölkəsinin enerji təminatında fəal iştirakçıya çevrilib - Aİ üzvü olan dövlətlərə ixrac olunan qazın həcmi isə bir neçə dəfə artıb. Aİ ilə qarşılıqlı ticarət balansı da normaldır. Belə olan halda, Aİ ilə Azərbaycan arasındakı əməkdaşlıq sırf işgüzar müstəvidə tənzimlənməlidir. Aİ ölkəmizin daxili işlərinə qarışmadan, özünü regionda "hakim" statusunda görmədən ikitərəfli münasibətləri inkişaf etdirə bilər. Prezident İlham Əliyev də bildirib ki, biz normal münasibət təklif edirik: gəlin, normal, ikitərəfli əməkdaşlıq edək. "Biz sizdən asılı deyilik, sizdən heç nə gözləmirik, sizin ailənizə üzv olmağa can atmırıq, açığını desək, siz heç vaxt müsəlman əhalisi olan ölkəni qəbul etməyəcəksiniz. Elə isə gəlin, yaxşı qonşular olaq, əməkdaşlıq edək, buyurun, ticarət edək, sataq, alaq, texnologiyalar əldə edək. Təəssüf ki, bunların bütün fəaliyyəti bizim Avropa İttifaqı ilə proqramların hamısını dayandırmağımıza gətirib çıxardı. Bütün tvininq proqramları dayandırılıb, Avropa İttifaqının leqal olan qrantlarının hamısı dondurulub", - deyə dövlət başçısı bildirib.

### Aİ anlayır ki...

Yeri gəlmişkən, Aİ-nin növbəti mərhələdə Azərbaycanla münasibətləri yeni ştrixlər üzərində qurmağa çalışması cəhdlərinin şahidi oluruq. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın yanvarın 9-da Prezident İlham Əliyevə zəng etməsi və telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsinin aparılması bunu deməyə əsas verir. Eyni zamanda, dövlət başçısının yanvarın 8-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edən zaman qurum rəsmisinin bildirdiyi fikirlər göstərir ki, Aİ Azərbaycana münasibətdə özünün davranışını dəyişmək üçün səy göstərir. Belə ki, ölkəmizin region və onun hüdudlarından kənar kontekstində əhəmiyyətinə toxunaraq, bu xüsusda Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqun önəmini vurğulayan Qrono Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini bildirib.

Beləliklə, Azərbaycanın yeni mərhələdə yeni siyasi-iqtisadi aktor kimi populyarlığı artıq Aİ üçün də aydındır. Bu mənada Aİ özünün iqtisadi maraqlarını ikitərəfli münasibətlərdə hər hansı bir üstünlük vəd etməyən Ermənistan üçün qurban verməməlidir. Tam əksinə, bölgədə yaranacaq sabitlik, sülh Aİ-nin də maraqlarına uyğun gəlir. Azərbaycanın formalaşdırdığı yeni siyasi reallıqlar Avropanın Şərqlə əməkdaşlığına dinamizm qazandıra bilər, şaxələndirər...

***P.İSMAYILOV***

# Sosial cəmiyyət quruculuğu naminə

## Beşinci sosial paketin icrası əhalinin sosial rifahının təminatında mühüm rol oynayacaq

Azərbaycanda əhalinin sosial rifahının təmin olunması dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Bu siyasətə uyğun olaraq, ölkəmizdə mühüm sosial ənənəyə çevrilmiş sosial islahatlar strategiyası davam etdirilir və icra edilən sosial paketlər layiqli sosial cəmiyyət quruculuğu fəlsəfəsinə əsaslanır.

Ötən 6 il ərzində həyata keçirilən 4 sosial islahat paketi çərçivəsində 3 milyondan çox insanın sosial təminatında böyük irəliləyişlər əldə edilib. Dövlətin sosial sahəyə xüsusi diqqəti ilk növbədə, maliyyə potensialının artması sayəsində daha da yaxşılaşır. Son 6 ildə ölkə iqtisadiyyatı davamlı olaraq yüksəlib, büdcə xərcləri 2018-ci ildəki 23 milyard manatdan 2025-ci ildə 41,4 milyard manata yüksəlib. Bu fiskal güc və yığım dinamikası müntəzəm şəkildə büdcənin sosial strukturunu da möhkəmləndirib. Eyni zamanda, Dövlət Sosial Müdafiə Fondunun son 6 ildə yığımları 2 dəfədən çox artıb.

### Minimum əməkhaqqı artımlarının dövlət və özəl sahədə çalışanlara töhfəsi

Bütün bu maliyyə potensialları sayəsində sosial artımlar üçün əhəmiyyətli maliyyə bazası formalaşıb. Büdcənin birbaşa artan imkanları sayəsində sosialyönümlü xərclərin payı isə son illərdə əhəmiyyətli həcmlərdə artıb. 2021-ci ildə büdcədə sosialyönümlü xərclərin məbləği 10,3 milyard manat təşkil edirdisə, 2024-cü il üçün bu məbləğ 15,5 milyard manata çatdırılıb, 2025-ci ildə isə 16,9 milyard manat nəzərdə tutulub. Bu göstəricilər qısa müddətdə sosial xərclərin 6,6 milyard manat və ya 1,6 dəfə artdığını göstərir. Sosialyönümlü xərclərin dövlət büdcəsində çəkisinin 41 faizə çatması isə sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir.

2025-ci ilin yanvar ayından etibarən ölkəmizdə beşinci sosial islahat paketi çərçivəsində sosial artımların icrasına start verilib. Dövlət başçısının imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamına uyğun olaraq, ilk növbədə, minimum əməkhaqlarının artımının təmin edilməsi icra olunacaq. Minimum aylıq əməkhaqqının məbləğinin 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılması sayəsində dövlət və özəl sektorda çalışan insanların maaşlarının ən aşağı məbləği 400 manat təşkil edəcək.




Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da təxminən bir ay müddətində bu sərəncama uyğunlaşdırılacaq və artırılacaq. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əməkhaqqı artacaq.

### Pensiyaçıların sosial müdafiəsinin yaxşılaşdırılması

Sosial sahədə prioritet təminat sektoru kimi pensiya ödənişləri də mühüm yer tutur. Hökumət ardıcıl olaraq bu sahəyə böyük həcmdə maliyyə ayırmaları həyata keçirir. Həm minimum pensiyaların, həm də əmək pensiyalarının artımları davamlı xarakter daşıyır. 2025-ci ildən start verilən beşinci sosial islahat paketi çərçivəsində minimum pensiyanın məbləği 280 manatdan 320 manata çatdırılıb, yaxın günlərdə isə əmək pensiyalarının artımı təmin olunacaq.




2023-cü ildən tətbiq edilən vahid indeksasiya metoduna əsasən, bütün kateqoriyalardan olan pensiyaçıların pensiyaları indeksləşdirilərək artırılır. "Əmək pensiyaları haqqında" Qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü üzrə - yaşa, əlilliyə və ailə başçısını itirməyə görə, ümumilikdə 1,1 milyon nəfərin pensiyasının məbləğləri ehtimal olunan proqnoza əsasən, təxminən 10 faiz artırılacaq. Nəticədə təkcə, pensiya artımları ilə əlaqədar olaraq 2025-ci ildə də büdcədən və Dövlət Sosial Müdafiə Fondundan pensiyaların ödənilməsi xərclərində əhəmiyyətli xərc dinamikası davam etdiriləcək. Belə ki, cari ildə əmək pensiyalarının ödənilməsi xərcləri üçün 7 milyard 210 milyon 530 min manat nəzərdə tutulub ki, bu da keçən il müvafiq istiqamətdə ayrılan vəsaitdən 710 milyon manat və ya 11 faiz çoxdur. Ümumilikdə isə pensiyalar üzrə ayrılan illik vəsait 2018-ci ildən ötən dövrdə 2 dəfə artırılıb.

Sosial artım strategiyasının digər bölməsi ünvanlı dövlət sosial yardımı ilə bağlıdır. Bu artımlar isə ölkə üzrə ehtiyac meyarına əsasən müəyyənləşir. Ehtiyac meyarının məbləği 2025-ci il yanvarın 1-dən 285 manata çatdırılıb və ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşların aldığı yardım məbləği də bu əmsala uyğun artırılacaq.

### Büdcə təşkilatlarına sosial dəstək, müavinət və təqaüdlərin artımı

Prezidentin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncamına əsasən, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı və Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Atatürk Mərkəzi, dövlət arxivləri və filialları, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Dövlət Film Fondu, Quba şəhərində "Soyqırımı memorial kompleksi", Milli Aerokosmik Agentliyinin Aparatı, Milli Kulinariya Mərkəzi, Mənəvi Dəyərlərin Təbliği Fondu və icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqların maaşları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.




Sosial strategiyanın digər mühüm istiqaməti kimi müavinət və təqaüdlərin, digər sosial ödənişlərin məbləğlərinin artırılması istiqamətində praktiki işlər davam etdirilir. Bütün bu əhatəli və çoxvektorlu sosial siyasət tədbirləri əhalinin sosial təminatının daha da gücləndirilməsinin prioritetliyini bir daha təsdiq edir.

***E.CƏFƏRLİ***

# Bələdiyyə institutunun inkişafı diqqət mərkəzindədir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Binəqədi rayonu, Rəsulzadə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində ölkəmizin bütün sahələr üzrə yüksəlişə nail olduğunu qeyd edib. O, çoxşaxəli islahatların həyata keçirildiyi Azərbaycanda bələdiyyə institutunun inkişafının diqqət mərkəzində olduğunu, görülən işlərlə yanaşı, yeni hədəflərin müəyyənləşdirildiyini də diqqətə çatdırıb.



Bələdiyyə üzvlüyünə namizədlər Ayət Nağıyev, Leyli Tahirova, Orxan Babayev və Hümbət Hüseynov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri fəal olmağa və YAP-ın namizədlərini dəstəkləməyə çağırıblar.

# YAP bu seçkilərin də qalibi olacaq



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nərimanov rayonu, Nərimanov bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev ölkəmizdə yerli özünüidarəetmənin təkmilləşdirilməsi üçün görülən işlərdən danışıb. O, YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, xalqın etimadını layiqincə doğruldan Yeni Azərbaycan Partiyası növbəti bələdiyyə seçkilərinə yeni reallıqlar və çağırışlar fonunda qələbə əzmi ilə qatılıb: "Bu zamana qədər çoxsaylı nailiyyətlərə imza atan YAP bu seçkilərin də qalibi olacaq".





Bələdiyyə üzvlüyünə namizədlər Təmraz Tağıyev, Kifayət Xudaverdiyeva, Nizami Babaşov, İradə Qarayeva, Tamerlan Əkbərov, Ülkər Piriyeva və digərləri çıxış edərək bələdiyyələrin sosial məsuliyyətinin, yerli özünüidarəetmədə vətəndaşların rolunun, hesabatlılıq və şəffaflığın artırılmasının önəmini vurğulayıblar. Qeyd edilib ki, xalqın etimadı əsasında bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri bu istiqamətlərdə fəal çalışacaqlar.

# Yeni Azərbaycan Partiyası hər zaman xalqın yanındadır!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qax rayonu, Zəyəm-Tasmalı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev ötən müddət ərzində Azərbaycanın dinamik inkişaf yolu keçdiyini, böyük uğurlar və misilsiz qələbələr qazandığını deyib: "Digər sahələrdə olduğu kimi, yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində də mühüm addımlar atılmış, o cümlədən zəruri qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, bələdiyyə qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunmuşdur".



Seçki qərargahının üzvü Ramil Məmmədli və bələdiyyə üzvlüyünə namizəd Niyaz Həsənov Azərbaycanda bütün sahələrdə aparılan islahatların müsbət nəticələr verdiyini bildiriblər. "Yerli özünüidarəetmənin təkmilləşdirilməsi və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar qarşıda mühüm vəzifələr durur", - deyə vurğulanıb. Onlar YAP-ın seçki proqramında bu sahə ilə əlaqədar əsas hədəfləri diqqətə çatdırıblar. Yeni Azərbaycan Partiyasının hər zaman xalqın yanında olduğu qeyd edilib.



Çıxış edən seçicilər Tural Hacıməmmədov və Hüseyn Abdullayev YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# YAP Zəfər partiyasıdır!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Xəzər rayonu, Türkan və Binə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.



YAP Xəzər rayon təşkilatının sədr müavini Şəfayət Nənəcanov Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin ölkəmizin sosial-iqtisadi inkişafını təmin etdiyini bildirib. O, qarşıdan gələn bələdiyyə seçkilərinin önəmindən danışıb, YAP-ın namizədləri barədə seçicilərə məlumat verib. Ş.Nənəcanov bu seçkilərdə də



Yeni Azərbaycan Partiyasının qalib olacağına əminliyini ifadə edib. "YAP Zəfər partiyasıdır", - deyə vurğulanıb.

Görüşdə çıxış edən bələdiyyə üzvlüyünə namizədlər Tehran Rəhimov, Fərzəli Hacıyev, Habil Həmidov və Ramin Feyziyev görüş iştirakçılarını seçkilərdə fəal iştirak edərək Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# Yeni hədəflərə doğru...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Yevlax rayonu, Qoyunbinəsi və Aran bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.



YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev bildirib ki, 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi - referendum nəticəsində qəbul olunmuş Konstitusiyada bələdiyyələrin hüquq və vəzifələri öz əksini tapıb. O qeyd edib ki, ölkəmizdə bütün sahələri əhatə edən islahat xarakterli tədbirlər bələdiyyə institutunun işinə də öz müsbət təsirini göstərib. R.Əliyev yeni mərhələdə yerli özünüidarəetmə orqanlarının inkişafı ilə əlaqədar YAP-ın əsas hədəflərini diqqətə çatdırıb.

Seçki qərargahının üzvləri Vahid Quliyev, Rəşad Qurbanov, Ariz Mikayılov, bələdiyyə üzvlüyünə namizədlər Yusif Kərimov, İradə Cəfərquliyeva, Leyla Məmmədova, Azər Qaytaranov, Vüsal Səfərov, Xəyal Əsədov, Nadir Mayılov, Elnur Quliyev, Tural Əsədli və Vəliyəddin Əliyev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri bələdiyyə seçkilərində ümumxalq partiyasını dəstəkləməyə çağırıblar.



# Tovuz seçiciləri YAP-ın namizədlərinə səs verəcəklər



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Tovuz rayonu, Düz Cırdaxan və Düz Qırıqlı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.



YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov Yeni Azərbaycan Partiyasının xalqın etimadını layiqincə doğrultduğunu vurğulayıb. O, partiyanın seçki proqramı haqqında ətraflı məlumat verərək bu zamana qədər həyata keçirilən tədbirləri və qarşıda duran hədəfləri diqqətə çatdırıb.

Bələdiyyə üzvlüyünə namizədlər Azər Zeynalov və Afət Cəfərova yerli özünüidarəetmə orqanlarının demokratik cəmiyyətin



əsas atributlarından biri olduğunu vurğulayaraq hər kəsi seçkilərdə fəal iştirak etməyə çağırıblar.

Çıxış edən seçicilər Nazim Quliyev, Arif Əsgərov və digərləri YAP-ın fəaliyyətini dəstəklədiklərini və bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Azərbaycanın inkişaf nümunəsi dünyada örnəkdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Yasamal rayonu, Yasamal bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, milli inkişafın Azərbaycan nümunəsi dünyada örnəkdir. O, bələdiyyələrin fəaliyyətinin yerli məsələlərin effektiv həlli baxımından önəminə diqqəti cəlb edib. B.Nəbiyev diqqətə çatdırıb ki, yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əhaliyə göstərilən xidmətlərin keyfiyyəti artacaq.

Seçki qərargahının üzvü Həbib Mirzəyev, təşviqat



qrupunun üzvü İlhamə Qəsəbova və bələdiyyə üzvlüyünə namizəd Tahir Məmmədov YAP tərəfindən irəli sürülən namizədlərin seçkilərdə xalqımız tərəfindən dəstək alacaqlarına inamlarını ifadə ediblər.

Seçicilər Əlikram Cəbrayılov, Elgün Rüstəmli və digərləri YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Heydər Əliyev yolu ölkəmizi Zəfər zirvəsinə yüksəldib



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli qeyd edib ki, müasir, qüdrətli, güclü və qalib Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir:



"Heydər Əliyev yolu Azərbaycanı Zəfər zirvəsinə yüksəldib. Bu gün Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlu nəticələri hər birimizin gözü önündədir. Hazırda harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə qürur duyur".

"İndiyədək keçirilən beş bələdiyyə seçkisinin hamısında YAP böyük üstünlüklə qalib gəlib" - de-



yən E.Cəfərli builki seçkilərdə də xalqımızın partiyanın namizədlərinə etimad göstərəcəyinə inandığını bildirib.

Seçki qərargahının üzvləri Rail Tağızadə və Nazim Bayramov, bələdiyyə üzvlüyünə namizədlər Tahir Hüseynli, Orxan Əliyev və Bahar Vəliyeva Ulu Öndər Heydər Əliyevin yerli özünüidarəetmənin inkişafı ilə bağlı müəyyən etdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıblar. Bələdiyyə seçkilərinin YAP-ın növbəti mühüm siyasi nailiyyəti kimi tarixə düşəcəyi əminliklə ifadə olunub.

# Yeni Azərbaycan Partiyasının fəaliyyəti milli maraqlara əsaslanır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qusar rayonu, İmamqulukənd bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov Yeni Azərbaycan Partiyasının məqsədyönlü fəaliyyətindən bəhs edib və bələdiyyə seçkilərinin ictimai-siyasi önəmini diqqətə çatdırıb. O qeyd edib ki, hər bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir: "Yeni Azərbaycan Partiyasının fəaliyyəti milli maraqlara əsaslanır. Partiyamız bu zamana qədər bütün seçkilərdə möhtəşəm uğurlara imza atıb. Heç şübhəsiz, YAP yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərində də xalqın dəstəyi ilə inamlı qələbə qazanacaq".



Seçki qərargahının üzvü General Sadulov, bələdiyyə üzvlüyünə namizədlər Canəli Hörmətov, Nail Babayev və Rza Güləliyev ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını vurğulayaraq seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədlərinə dəstək ifadə etməyə çağırıblar.

# Yeni uğurlara imza atacağıq!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şamaxı rayonu, Şamaxı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı bildirib ki, Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə, müstəqilliyi daimi, dönməz və əbədi



etməyə nail olub: "Ümummilli Lider xalqımıza çoxsaylı tarixi nailiyyətlər qazandırmaqla yeni, müasir və müstəqil Azərbaycan reallığını yaradıb. Bu gün Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində milli məqsədlərimiz müvəffəqiyyətlə gerçəkləşdirilir, bütün sahələrdə böyük nailiyyətlər qazanılır".

T.Qasımlı bildirib ki, dövlət başçısının ölkəmizin tərəqqisinə xidmət edən siyasətinin təməlində çoxsaxəli islahatların həyata keçirilməsi dayanır: "Bu, bü-



tün sahələrdə davamlı yüksəlişi təmin etməklə bərabər, bələdiyyə institutunun da inkişafı üçün münbit zəmin formalaşdırmışdır".

Seçki qərargahının üzvü Ağarza Bayramov və təşviqat qrupunun üzvü Fuad Səmiyev YAP-ın seçki proqramında nəzərdə tutulan hədəflərin gerçəkləşdirilməsinin yerli özünüidarəetmə orqanlarının fəaliyyətini təkmilləşdirəcəyini qeyd edərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# "Yeni Azərbaycan Partiyası birmənalı seçimimizdir!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Oğuz rayonu, Bucaq bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov müstəqil Azərbaycanın tərəqqisində Yeni Azərbaycan Partiyasının müstəsna xidmətlərindən danışıb. O, YAP-ın cəmiyyətdə yüksək nüfuza malik olduğunu və qələbələr partiyası kimi tanındığını söyləyib. S.Məhərrəmov bələdiyyə seçkilərinin xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacağını bildirib.

Seçki qərargahının üzvləri Ehtibar Yusubov və



Mehman Ramazanov, bələdiyyə üzvlüyünə namizədlər Adil Şükürov, Samir Abbasov, Rəftar Əhmədli və Rəhim Abdurəfiyev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər.

Seçicilərdən Müseyib Musayev, İkram İslamov, Nuranə Cabbarova və digərləri YAP-ın uğurlu fəaliyyətini təqdir edirlər. "Yeni Azərbaycan Partiyası birmənalı seçimimizdir!", - deyə bildirilib.

# Azərbaycan sabitlik adası, tərəqqi məkanıdır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Neftçala rayonu, Neftçala, Xıllı və Qədimkənd bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.



YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində qazanılan uğurlardan söz açıb. O qeyd edib ki, dövlət başçısının müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə



də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb: "Bu gün iftixarla qeyd edirik ki, Azərbaycan sabitlik adası, tərəqqi məkanıdır".

Bələdiyyə üzvlüyünə namizədlər Muxtar Rəsulov, Qabil Hüseynov və digərləri yerli özünüidarəetmə orqanlarının fəaliyyətindən bəhs edib, bu sahədə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# 34 yaşlı “Səs”!

## Dəfələrlə hücumlara, təzyiqlərə məruz qalan qəzet...



Bu gün respublikanın çoxsaylı mətbu orqanları arasında özünəməxsus dəst-xətti ilə seçilən “Səs” qəzetinin 34 yaşı tamam olur. Qəzet Azərbaycan mətbuatının inkişafında, söz və fikir azadlığının müdafiəsində, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında öz sözünü deyə bilib.

Müstəqilliyimizin bərpasından 9 ay öncə fəaliyyətə başlayan “Səs” qəzetinin yaranması, keçdiyi yolu xarakterizə etmək və digər sualları cavablandırmaq məqsədi ilə qəzetin baş redaktoru Bəhruz Quliyevlə söhbətləşdik.

**-“Səs” qəzetinin yaranması hansı zərurətlə bağlı olub?**

- “Səs” qəzeti müstəqil Azərbaycan mətbuatının ilk mətbu orqanlarından biridir. “Səs” ictimai-siyasi qəzet kimi 1990-cı ilin noyabrında “Əlincə” Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçib, 1991-ci il yanvarın 11-dən dərcinə başlanıb. Yəni qəzetin tarixi Azərbaycanın müstəqillik tarixindən bir neçə ay əvvələ təsadüf edir. Qəzet Heydər Əliyevin ideyalarının cəmiyyətə çatdırılması kimi müqəddəs missiyanı yerinə yetirib, bu qəzetin ətrafında Ulu Öndəri sevənlər cəmləşib. Bütün zamanlardakı fəaliyyəti dövründə qəzetimiz sağlam ideyanın cəmiyyətə çatdırılması missiyasını şərəflə yerinə yetirib. O dövrdə Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun ideyalarının cəmiyyətə çatdırılması istiqamətində böyük, hətta deyərdim ki, əvəzolunmaz işlər görüb. Həmin dövrlərdə ziyalıların Ümummilli Liderə müraciəti, onun ziyalılara cavabı məhz “Səs” qəzetində dərc olunurdu. Bu xidmətin nəticəsidir ki, Heydər Əliyev öz çıxışlarında hər zaman vurğulayardı ki, “Səs” qəzeti onun üçün çox əziz qəzetdir. O, qəzetin xidmətlərini xüsusi qiymətləndirir, əmin olduğunu bildirirdi ki, qəzet daim inkişaf edəcək, modernləşəcək.

Yarandığı dövrdə qəzetimiz dəfələrlə hücumlara, təzyiqlərə məruz qalıb. Amma qəzet öz yolundan, öz mövqeyindən dönməyib. “Səs” çoxsaylı layihələr həyata keçirib. Sonrakı dövrlərdə qəzet modernləşərək öz bazasında “Səs” İnformasiya Agentliyini (SİA) və SƏS TV internet televiziyasını yaradıb.

**-Hazırda kollektiviniz neçə nəfərdən ibarətdir?**

-Regionlardakı müxbirlərimizlə birlikdə hazırda 50-yə yaxın işçimiz var. Amma “Səs” qocaman qəzet kimi gəncləri də yetişdirir. Bir sözlə, qəzetimizdəki kollektivin sayı mütəmadi olaraq yenilənir.

**-34 yaşınızı xüsusi qeyd edəcəksiz?**

-”Səs”qəzeti olaraq hər il yaşımızı redaksiya daxilində qeyd edirik. Amma yubiley yaşlarımızı əhəmiyyətli tədbir formasında qeyd etmişik. “Səs” böyük məktəb yaradıb, bu məktəbdən çıxmış tələbələr müxtəlif yerlərdə çalışır. Onlar Azərbaycan mediasında, mərkəzi və yerli icra hakimiyyətləri orqanlarında, QHT-lərdə çalışırlar və yubileylərimizi qeyd edərkən onları da restorana dəvət edib yenidən ailə olaraq bir araya gəlirik. “Səs” mənəvi dəyərləri özündə yaşadan və qlobal dünyaya, gələcəyə qovuşan resursdur. Qəzetimiz keçmişə hörmət, gələcəyə rəğbət tezisi ilə inkişaf edən ocaqdır.

**-Bu gün mətbuatımızın ümumi durumunu necə dəyərləndirirsiniz?**

- Bu gün Azərbaycanda söz azadlığının təmin olunması, plüralizmin inkişafı istiqamətində dövlət öz üzərinə düşən vəzifəni yerinə yetirir. Bu sahədə qanun qəbul olunub, müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilib. Söz və mətbuat azadlığının təmin edilməsi dövlət siyasətində prioritet istiqamətlərdən biridir.

Qəzet bir nümunədir, tarixi yaşadan arxivdir. Qəzet təcrübə yaradan, nümunə göstərən, jurnalistləri ideya ətrafında birləşdirən bir vasitədir. Bu gün qəzetə müasir media ilə ayaqlaşa bilməyən resurs kimi baxırlarsa, bu, tamamilə yanlış bir fikirdir. Jurnalist camiəsi bilməlidir ki, aylıq, həftəlik, gündəlik çıxmasından asılı olmayaraq, onların söykəndiyi, istinad etdiyi və daim öyrənəcəyi ocaq qəzetçilikdir.

**-“Səs”in gələcək planlarından danışardız...**

-Əvvəllər “Səs” qəzeti regionların sosial-iqtisadi inkişafı, problemlər, əldə olunan uğurlarla bağlı dəyirmi masalar təşkil edirdi. Qəzet ümumiyyətlə, ən aktual məsələlərlə bağlı dəyirmi masalar təşkil edib, bu dəyirmi masalarda görkəmli ictimai-siyasi xadimlər, deputatlar, dövlət məmurları iştirak edirdi. Eyni zamanda müxtəlif universitetlər, QHT-lərlə birgə layihələr keçirilib. Bu dəyirmi masaları yenidən təşkil etməyi planlayırıq.

Bundan başqa, qəzetin bazasında yaranmış subyektlərimizi-agentlik və televiziyamızı daha da inkişaf etdirməyi nəzərdə tuturuq. “Səs”in xarici qəzetlərlə əməkdaşlıqları var. Gələcəkdə bu əməkdaşlıqları genişləndirmək istəyirik.

“Səs” ictimai-siyasi qəzet kimi üzərinə düşən missiyanı həmişə yerinə yetirməyə çalışıb. Bundan sonra da “Səs” qəzeti öz ənənəsinə sadiq qalacaq, özünəməxsusluğunu qoruyub-saxlamaqla, müasir zamanın yeniliklərində öz sözünü deməyi, dövlətçilik uğrunda mübarizəsini, fəaliyyətini davam etdirəcək.

**P.S.** “Yeni Azərbaycan” qəzeti olaraq “Səs”in bütün kollektivini təbrik edir, qəzetin yeni uğurlara imza atmasını arzulayırıq!

**Söhbətləşdi: Yeganə BAYRAMOVA**

# Cənubi Qafqaz - imkanlar, hədəflər, perspektivlər...

## Region yeni nizama yeni strateji yol xəritəsi ilə qədəm qoyur...

**Artıq 5 ildir ki, yeni inkişaf mərhələsi yaşayan, yeni siyasi reallıqlara əsaslanan Cənubi Qafqaz özünün identikliyi ilə beynəlxalq münasibətlər sistemində önə çıxmaqdadır. Bu mərhələ regionun həyatında yeni - sabit, inkişafa yönəlik dövrün başlanğıcı kimi də qeyd edlə bilər. Bu gün yeni iqtisadi nizamın formalaşdığı zamanda Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət tapması, tanınması qlobal diqqəti bizim coğrafiyaya fokuslandırır. Qarşıdakı mərhələni bölgə üçün xarakterik mahiyyəti üzrə izah etməyə çalışsaq, ortaya təxminən bu formada bir mənzərə çıxacaq. Cənubi Qafqazın 2025-ci ildəki yeni nizam şərtləri:**

**- Qlobal güclərin maraqları və regional dinamika;**

**- Azərbaycanın regionun inkişafında və siyasi çəkisinin artmasında lider rolu;**

**- Gürcüstanın yeni siyasi xətti və bölgə üçün perspektiv baxışlar;**

**- Ermənistanın inteqrasiya çətinlikləri - sülh və sabitlik, xarici siyasətin qərarsızlıq vektorundan çıxması cəhdləri...**

**Beləliklə, yeni nizamda Cənubi Qafqaz qlobal təhlükəsizlik arxitekturasının ən mühüm elementlərindən biri qismində çıxış edir. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun”**

### Azərbaycanın liderliyi ilə: Cənubi Qafqaz yeni strateji oyunçu qismində

Sirr deyil ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan bölgənin əsas siyasi-iqtisadi aktoruna, strateji oyunçusuna çevrilib. 2025-ci il isə bu strukturun daha da möhkəmlənməsi üçün əsl zəmin ola bilər. O baxımdan ki, yaxın keçmişdə atılan təməllər Azərbaycanın həm regional, həm də qlobal rolunun artması üçün şəraiti formalaşdırır.

Azərbaycanın 2025-ci il perspektivində əsas siyasi məqsədi regionda sülh və sabitliyi təmin etmək, həmçinin regional güc balansını təmin edərək dünya miqyasında daha möhkəm siyasi və iqtisadi əlaqələr qurmaqdır. Bunun üçün isə zəmin, şərait və hüquqi müstəvi mövcuddur. İlk növbədə sülhün reallaşması üçün atılan addımlar bir sıra nəticələrə yol açıb:

- Qazax rayonunun işğal altındakı 4 kəndi döyüşsüz qaytarılıb:
- Ermənistan ilə ikitərəfli təmaslar qurulub, görüşlər keçirilib;
- İki ölkə arasındakı sülh prosesi ilə bağlı müddəaların mütləq əksəriyyətində razılıq əldə olunub;
- Bölgənin iqtisadi dividendlərindən tam istifadə etmək üçün regional və daha geniş əməkdaşlıq əlaqələri qurulub.

Azərbaycanla bağlı perspektivlərə toxunmamışdan öncə, bölgə ilə bağlı uzunmüddətli planlara diqqət yetirmək lazımdır. Təşəbbüskarı olduğumuz “3+3” formatı regional əlaqələrin güclənməsinə rəvac verir - eyni zamanda, Azərbaycan bir sıra logistik şəbəkə ilə Qərb-Şərq kontentinin əlaqələndirilməsində mühüm rol oynayır. Orta dəhliz, Zəngəzur dəhilizi, hətta trans-İran ticarət xəttləri ümumən bölgənin gələcək inkişafı üçün mühüm paradiqmalar formalaşdırır. Bunun reallaşması üçün isə bir şərt vacibdir - Ermənistanın manipulyasiyalardan əl çəkməsi və sülhün reallaşması.

Azərbaycanın gələcək perspektivdə Cənubi Qafqazın uğurlu inkişafı ilə bağlı apardığı siyasi kursda xarici əlaqələri də mühüm təsir yaradır:

- Türkiyə ilə strateji müttəfiqlik;
- Çin ilə imzalanan strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə;
- Avropanın enerji təhlükəsizliyində oynadığımız rol;
-Qlobal təhlükəsizliyə verdiyimiz töhfələr bütün mənalarda ümumən Cənubi Qafqaz coğrafiyasının inkişaf perspektivinin əsas ştrixlərinə çevriləcək. Yeni nizamda siyasi üstünlüklər iqtisadi diversifikasiya ilə möhkəmləndiriləcək ki, burada da Azərbaycanın rolu birmənalıdır. Yeni iqtisadi format bölgənin ümumi siyasi gücünü artırır - məhz Azərbaycanın apardığı siyasət Cənubi Qafqazın müstəqil aktor kimi çıxışını əsaslandırır. İllərdir ki, bir sıra xarici müdaxilə cəhdlərinə qarşı açıq mübarizə aparan və bütün proseslərdən qalib ayrılan Bakı mühüm presedent yaradır - ümumən bölgə üçün yeni inkişaf istiqamətləri müəyyənləşdirilir. Bölgədəki təhdidləri dəf etmək və yeni siyasi təşəbbüslərlə irəliləmək məqsədi Azərbaycanın bütövlükdə bölgə üçün hazırladığı strateji yol xəritəsinə çevrilməkdədir. Bu, həm regional tərəfdaşlığın yeni müstəvidə inkişafına dəstək verir, həm də Cənubi Qafqazın güc mərkəzi kimi özünü təsdiqləməsində əsas yaradır.

Beləliklə, Azərbaycanın yaratdığı üstünlüklər bütün çalarları ilə göz önündədir. Dövlət başçısı öz müsahibəsində qeyd etdi ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir.




### Ermənistan üçün son qərar: bölgənin ümumi inkişaf tempinə uymaq üçün...

Ermənistana gəldikdə isə, burada vəziyyət daha fərqlidir. 2025-ci il üçün İrəvanın əsas hədəfi məhz sülh olmalıdır - əks halda, gözlənilən daxili və xarici kataklizmlərdən yayınmaq qeyri-mümkün olacaq. Yeni nizamda Ermənistan hələ ki, müstəqil siyasi iştirak ümidini göstərə bilmir - bu ölkə sülhpərvər mövqe sərgiləyəcəyi təqdirdə. Azərbaycanın yaratdığı siyasi-iqtisadi reallıqların fonunda özünün inkişaf yolunu təyin edəcək. Vurğulandığı kimi, qeyri-konstruktiv mövqedən əl çəkməsi, sülhü imzalaması həm də İrəvana kənar qüvvələrin forpostu qiyafəsindən xilas olmaqda kömək edəcək.

Ermənistan üçün qarşıdakı dövr daha çox siyasi müəmmaların həlli ilə bağlı perspektiv yaradır:

- 2025-ci ildə Ermənistan bölgədəki yeni reallıqlara uyğunlaşma cəhdlərini yerinə yetirməlidir;
- Özünün siyasi xəttini və ya yolunu müəyyənləşdirməlidir;
- Müstəqil siyasi subyekt kimi özünü təsdiqləməli;
- Bölgənin ümumi inkişaf tendensiyasına ayaq uydurmalıdır.

Bunun üçün isə Ermənistan bölgənin ümumi inkişaf strategiyasının hissəsi olaraq çıxış etməlidir - başqa sözlə, bölgədə gedən proseslərdə “maneə olan rol”da deyil, “köməkedici rol”da olmalıdır. Yəni, bütün manipulyativ cəhdlər kənara qoyulmalı, dinc və heç bir təhdidin olmaması şəraitində yaşamaq üçün hüquqi zəmin formalaşdırmalı (konstitusiya dəyişikliyinə imza atmalı), Zəngəzur dəhlizinin açılmasında müsbət mövqe sərgiləməli, regional əməkdaşlığın halqasına çevrilmək üçün cəhdlər göstərməlidir. Zəngəzur dəhlizi və regional inteqrasiyanın Ermənistan üçün yaratdığı imkanlar olduqca genişdir - bunun üçün siyasi iradə, müstəqil fikir və cəsarət tələb olunur. İrəvan silahlanmanın ona yaratdığı problemləri dərk etməli, regional təhlükəsizlik arxitekturasının qurulmasına kömək göstərməlidir - bunun üçün isə Azərbaycan real yol təqdim edir. Yeni nizamda yeni yol Ermənistan üçün olduqca böyük perspektiv vəd edir.

2025-ci il Ermənistanın özünü regional təcriddən qurtarması üçün real şansdır - bu, ölkə daxilində siyasi gərginliklərə də öz təsirini göstərə bilər. O ki qaldı, Ermənistanın ümumən bölgənin xarici siyasət diaqrammasında tutacağı yerə, İrəvan özünün “siyasi şıltaqlıqlarından” əl çəkməyə məhkumdur. Əks halda... İrəvan yenidən hansısa kənar güclərin alətinə çevrilməyə çalışsa, bundan yalnız uduzacaq...

### Gürcüstan üçün şans: yeni iqtisadi-siyasi şarm...

Vurğulanmalıdır ki, Cənubi Qafqazın hər 3 ölkəsi Azərbaycanın yaratdığı yeni mərhələnin - sabitlik və inkişaf mərhələsinin yeni nizamda daha da şaxələndirilməsində, genişləndirilməsində maraqlı olmalıdırlar. Çünki bu strateji əməkdaşlıq mühiti regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Cənubi Qafqaz ölkələri bu yeni inkişaf strategiyasını yaxından təqib etməlidirlər - ortaya qoyulan təhlillərə əsasən demək olar ki, Gürcüstan da bu məsələdə maraqlıdır - bu həm ictimaiyyət, həm də dövlət rəsmiləri tərəfindən dəfələrlə səsləndirilib. Son proseslər zamanı ortaya qoyulan iradə onu göstərir ki, Gürcüstan özünün müstəqil inkişaf xəttini yaratmaqda israrlıdır. Gürcüstan Azərbaycan üçün, bütövlükdə Cənubi Qafqaz üçün önəmli ölkədir və eyni zamanda, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır. İki ölkə arasında tarixi layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz kimi mühüm laiyhələr icra edilir. Ölkəmizin yaratdığı yeni mərhələ isə bu inkişafı daha da irəliyə daşımaq əzmindədir.

Qeyd edildiyi kimi, son proseslərdən sonra Gürcüstan özünün yeni inkişaf dinamikasını yaradır. Ötən il verilən qərarlar, xüsusilə xarici təsirlərin azaldılması ilə bağlı qanun layihəsinin qəbulu Tbilisinin yeni iqtisadi-siyasi şarmını ortaya qoyur. Qərblə əlaqələrin milli maraqlar çərçivəsində dəyərləndirilməsi, regional əməkdaşlığa yenidən baxılması ilə bağlı impuls bir daha onu göstərir ki, Gürcüstan bölgənin xüsusi inkişaf balansında özünün ənənəvi yerini daha da möhkmələndirməkdə qərarlıdır. Bu ölkə özünün iqtisadi gələcəyini regional enerji və nəqliyyat layihələrində iştirakla sıx bağlayır - Qara dəniz limanları vasitəsilə Asiya-Avropa bağlantısında strateji rol oynamaqla yanaşı, Gürcüstan ümumi ticarət balansının yüksək müsbət saldosunda da əhəmiyyətli yer tutur.

Gürcüstanın daxili siyasi mühiti də 2025-ci ildə dəyişəcək - güman etmək olar ki, Tbilisi daha fərqli, xüsusən milli maraqlara üstünlük verən bir siyasi xəttə üstünlük verməkdə qərarlıdır. Gürcüstan, Cənubi Qafqazda Azərbaycanın əsas strateji tərəfdaşı olmaqla yanaşı, həm də Ermənistanla gərginlikləri azaltmaq üçün diplomatik təşəbbüslərə qatılmağa hər zaman hazır olduğunu bildirir - bu isə, Tbilisinin birləşdirici marağa əsaslanmasının sübutudur.

O ki qaldı, Cənubi Qafqazın yeni dövrdə qlobal dünya ilə münasibətlərinə, burada da fərqli - inkişafı hədəfləyən, müstəqil siyasi iradəyə malik tendensiya müşahidə olunur. Xüsusilə bölgəyə yaxın coğrafiyada yerləşən Rusiya, Türkiyə, Avropa İttifaqı və Çin kimi mühüm siyasi strateji oyunçularla münasibətdə işgüzar mühitin qorunması əsaslı şərt kimi meydana çıxır. ABŞ-ın yeni hakimiyyətinin Cənubi Qafqaza münasibətdə tutduğu mövqe isə Vaşinqtonla bölgə arasında münasibətlərin daha dinamik rəng almasına şərait yaradan amillər sırasında çıxış edir.

Beləliklə, 2025-ci ildə Cənubi Qafqaz regionu üçün sülh və əməkdaşlıq potensialının artması, yeni mərhələnin başlanması ilə səciyyələndirilir - Azərbaycanın lider rolu əsasında formalaşacaq yeni nizam sülh və sabitliyin, iqtisadi dayanıqlığın əsas şərtinə çevriləcək. Prezident İlham Əliyev vurğuladı ki, Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir: “Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük.

### Qlobal əməkdaşlıq: hədəflər, əlaqələr...

Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur. Biz indi belə görürük, yəni suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək. Bütün bunlar bizim, əslində, xarici siyasət xəttimizdir. Azərbaycan uzun illər bu siyasəti aparır. Biz heç kimin işinə qarışmırıq, öz işimizlə məşğuluq. Kim bizə müraciət edir, çalışırıq ki, o müraciətləri cavabsız qoymayaq. Öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq.

*Pərviz SADAYOĞLU*

# "Binokl diplomatiyası" başa çatır...

## Azərbaycan qətiyyət göstərir, Ermənistan isə hər zaman olduğu kimi boyun əyir

Cənubi Qafqazda sülhün formalaşmasına mane olan faktorlardan birinə çevrilmiş Aİ-nin Ermənistandakı mülki monitorinq missiyasının fəaliyyət müddəti başa çatmaqdadır. 2023-cü ilin əvvəlindən etibarən "mülki monitorinq missiyası" adı altında Ermənistana yerləşdirilən bu qrupun missiyası bəllidir - Avropa İttifaqı, xüsusilə Fransa məhz bu yolla Ermənistana yerləşmək, oradan isə bölgəyə nüfuz etməyə çalışır. Amma bu, mümkün olmur. Belə ki, Azərbaycanın qətiyyətli davranışı "mülki monitorinq" adı altında gizlənən qrupun əsl simasını üzə çıxarır. Heç bir effektivliyi olmayan "binokl diplomatiyası" isə sadəcə lokal maraqların təcəssümüdür - hətta Ermənistana belə faydası olmayan missiya bəzən daxili stabilliyi pozmaq, bəzən şərti sərhəddə gərginlik yaratmaq, bəzən isə qeyri-adekvat "mesajlar" üçün istifadə olunur. Məsələn, bir müddət öncə Polşa prezidentinin şərti sərhədə gələrək Azərbaycana tərəf boylanması kimi...

### Qəti və birmənalı mövqe...

Bəli, artıq missiyanın fəaliyyət müddəti başa çatmaqdadır. Fevral ayında missiya özünün xidməti dövrünü yekunlaşdırmalıdır. Görünən isə budur ki, Aİ bu qrupun fəaliyyətini hələ bir az da davam etdirmək niyyətindədir. Azərbaycanın məsələdəki mövqeyi birmənalıdır - sülh sənədinin razılaşdırılmamış bəndlərindən biri məhz başqa ölkələrin nümayəndələrinin bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Prezident İlham Əliyev vurğulamışdı ki, sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev vurğuladı ki, Avropa İttifaqının qondarma müşahidə missiyasının müddətinin uzadılması etimadı möhkəmləndirmədi, əksinə, sarsıtdı: "Axı, bunun bizimlə razılaşdırılmasını tələb etdikdə, hansısa yüksək ambisiyalardan çıxış etmirdik, sadəcə istəyirdik ki, bu missiyanın özünün yaradılması və onun sərhədimizə göndərilməsi bizimlə, 2022-ci ilin oktyabrında Praqada şəxsən mənimlə razılaşdırılsın. Əgər həmin vaxt biz bunun iki aylığına və 40 nəfərdən ibarət olacağı barədə razılığa gəldiksə, deməli, bu, belə də olmalı idi. Mən razılığa gəldikdə, hətta sözdə də olsa, həmişə bu razılaşmalara əməl edirəm. Amma belə bir vəziyyətdə Avropada hesab etdilər ki, onlar həmin razılaşmaları pozmaq hüququna malikdirlər. Sonra heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər. Onların oradan necə sürətlə qaçacağını göstərmək istəmirəm, əgər kimsə təsadüfən Azərbaycan ərazisinə soxularsa, onda sadəcə görəcəklər ki, əllər necə qaşınır. Ona görə də biz onlara çatdırdıq ki, binokl şousuna son qoysunlar, artıq, necə deyərlər, binoklsuz gəzişirlər".




Prezident İlham Əliyev Azərbaycanın mövqeyini Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşdə də önə çəkdi - bildirildi ki, ölkəmiz Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması üçün səyləri bundan sonra da davam etdirəcək və Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi ikitərəfli müstəvidə aparılacaq. Beləliklə, Azərbaycan birmənalı şəkildə hər hansı bir missiyanın prosesə müdaxiləsinin və ya yeni "vasitəçi formatın" yaranma ehtimalının tam şəkildə üstündən xətt çəkmiş oldu.

### Ermənistan gah belə deyir, gah da...

Ermənisan isə özünün manipulyativ addımlarını davam etdirir. Sözdə sülhə razı olan İrəvan Aİ missiyasının yenidən ölkədə qalması ilə bağlı "arzularını" səsləndirir. Baxmayaraq ki, baş nazir Nikol Paşinyan noyabrın 22-də İctimai Televiziyaya müsahibəsində Ermənistan tərəfinin demarkasiya aparılan ərazilərdən Aİ müşahidəçilərinin çıxarılmasını təklif etmişdi- bununla belə, spekulyasiyaları ilə yadda qalan Ermənistan hakimiyyəti yenə də buqələmun siyasətə üstünlük verdiyini ortaya qoyur. Məsələn, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, Ermənistanın delimitasiya edilmiş sərhədi olmayana qədər, atəşkəs rejimi pozulduğu üçün (halbuki atəşkəsi də Ermənistan özü pozur) Ermənistanda Aİ-nin mülki missiyasına ehtiyac olacaq. Baş nazir Nikol Paşinyan isə Aİ rəsmisi Maqdalena Qrono ilə görüşdə məsələyə toxunulub. Ümumiyyətlə, Aİ-nin özünün "elçisini" əvvəlcə Bakıya, sonra isə İrəvana yollamaqda məqsədi missiyaya "real legitimlik" qazandırmaq istəyindən qaynaqlanır. Amma Ermənistan və Aİ nə qədər israr etsə də, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır.

### Aİ prosesi tezləşdirməyə çalışır...

Aİ də müddət sona çatmaq üzrə olduğu üçün "fəallaşıb". Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Aİ-nin Ermənistanda mülki missiyasının yerləşdirilməsinin daha iki il müddətinə uzadılmasını təklif edib. Ermənistan mətbuatının yaydığı məlumata görə, ali nümayəndə üzv dövlətlərin bu təklifi müsbət qarşıladığını deyib - hazırda Avropa İttifaqı Şurasının müvafiq qurumları ilə zəruri qanunvericilik aktları müzakirə edilir. Ali nümayəndə bildirib ki, "Şuranın müddəti uzatmaqla bağlı qərarının yaxın günlərdə qəbul ediləcəyi gözlənilir".

Aİ ali nümayəndəsi iddia edib ki, müşahidə missiyası yerləşdirildikdən sonra sərhədyanı ərazilərdə silahlı insidentlərin sayı xeyli azalıb - yalanın bu qədəri isə yalnız ironiya doğurur. Çünki bu fikirlər həqiqəti əks etdirmir.

Ermənistan demək olar ki, mütəmadi olaraq vəziyyəti gərginləşdirmək üçün "səy" göstərir. Ötən ildən bu yana Ermənistan silahlı qüvvələri artıq dəfələrlə silahlı təxribata əl atıb. Sadəcə olaraq "mülki missiya" Ermənistanın bu silahlı təxribatlarını qeydə almır - bu isə Aİ missiyasının Ermənistana sülhpərvər don geyindirməyə çalışmasından irəli gəlir.

*P.İSMAYILOV*

# Avropanı bürüyən böhranlar

Bir vaxtlar özünü bütün dünyaya nümunə kimi təqdim edən Avropa İttifaqı (Aİ) məkanına daxil olan ölkələrdə ziddiyyətli proseslər müşahidə edilməkdədir. Aİ-nin cəlbediciliyi sürətlə azalır, mərkəzdənqaçma meylləri güclənir. Eyni bir çətir altında birləşən ölkələr arasında qarşıdurmalar artıb. Aparıcı dövlətlərdə də vəziyyət hər ötən gün çətinləşir, hökumətlər üst-üstə qalanan problemlərin öhdəsindən gəlməkdə aciz görünürlər. Nüfuzlu reytinq agentliklərinin hesabatlarında da ardıcıl olaraq Avropanı bürüyən böhranlardan məyusluq ifadə olunur. Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, bu gün "qoca qitə"də iqtisadi və siyasi böhran paralel şəkildə gedir və əslində, bir-birindən qaynaqlanır.

### İqtisadi problemlər artır

İqtisadiyyat hər bir ölkə üçün lokomativ qismində çıxış edir. Alınan məlumatlardan aydın şəkildə görünür ki, hazırda Avropa iqtisadi problemər məngənəsindədir. Aparılan müstəqil sorğuya əsasən, Avrozonada investorların inam indeksi bir ildən çoxdur ki, aşağı olaraq qalır. Ötən ilin dekabrında mənfi 17,5 olan investorların inam indeksi cari ilin yanvarında azalaraq 17,17 olub. Beləliklə, indeks 2023-cü ilin noyabrından bəri ən aşağı səviyyəyə düşüb. Cari vəziyyət indeksi isə mənfi 28,5-dən mənfi 29,5-ə geriləyərək 2022-ci ilin oktyabrından bu vaxtadək ən aşağı səviyyəyə çatıb.

Aparıcı ölkələrdə yaranan durum həyəcan təbili çalmağa əsas verir. Fransada vəziyyət xüsusilə ağırdır. Məhz artan iqtisadi problemlərə görə Mişel Barnye hökumətinin ömrü qısa oldu. Məcburiyyət qarşısında qalan Makron mərkəzçi "Demokratik Hərəkat" Partiyasının lideri 73 yaşlı Fransua Bayrunu Fransanın yeni Baş naziri təyin edib. Ancaq yeni Baş nazirin də ölkəni uğursuzluq zolağından çıxaracağına inam çox azdır. Fransanın Sosial Sorğu və Marketinq İnstitutunun (İFOP) keçirdiyi sosial sorğunun nəticələrinə görə fransızların yalnız 36 faizi Fransua Bayrunun yeni Baş nazir təyin edilməsindən məmnundur.

İş o yerə çatıb ki, yeni hökumət də 2025-ci ilin büdcəsinin təsdiqlənməsinə nail olmayıb. Ölkənin 2025-ci il üçün büdcəsinin ən yaxşı halda gələn ayın sonlarında qəbul edilə biləcəyi ehtimal olunur. Fransanın İqtisadiyyat, Maliyyə, Sənaye və Rəqəmsal Suverenlik Nazirliyi nəzdində ictimai hesablar üzrə məsul nazir Ameli de Monşalen bu barədə "Le Parisien" qəzetinə müsahibəsində deyib.

"Büdcənin təsdiq edilməməsi iqtisadi qeyri-müəyyənliyə səbəb olur. Vaxt daralır və büdcə martın əvvəlinədək qəbul edilməlidir", - deyə Ameli de Monşalen bildirib. O, həmçinin əlavə edib ki, hökumət 2025-ci il büdcəsinin kəsirini 5 faiz səviyyəsində saxlamaq istəyir.

Yeni hökumət başçısı Fransua Bayru ölkənin üzləşdiyi maliyyə problemlərinin həllini özünün əsas prioriteti adlandırıb. Hazırda Fransanın dövlət borcu 3,3 trilyon avronu ötüb ki, bu da ümumi daxili məhsulun 113,7 faizinə bərabərdir.

Fransa hökumət böhranı ilə paralel şəkildə, həm də etirazlar dalğası ilə çalxalanır. Fransanın Kənd Koordinasiyası (Coordination rurale) təşkilatı tətbiq edilən standartlara, eləcə də Avropa İttifaqı ilə Merkosur ölkələri arasında nəzərdə tutulan azad ticarət müqaviləsinə etiraz məqsədilə tədbirlər görməyə çağırış edib. Kənd Koordinasiyasının (CR) X sosial şəbəkə hesabında yayımlanan məlumatda qeyd edilib ki, onlarla fermer "ilbiz əməliyyatı" çərçivəsində Paris istiqamətinə yola düşüb. Kənd təsərrüfatı həmkarlar ittifaqlarının məlumatına əsasən, Burqundiya və Franş-Komtda (Franche-Compte) yürüş keçirilib. Fermerlər Merkosur ilə təklif olunan azad ticarət müqaviləsi ilə bağlı narahatlıqlarını bildirirlər. Traktor karvanı Lionun kənarındakı A7 avtomobil yolunu bağlayıb.

Kənd Koordinasiyasına görə, fermerlərin nümayişləri üç, dörd və ya beş gün davam edə bilər. Son günlərdə Kənd Koordinasiyası əsas tələblərini, eləcə də Fransada Avropa qaydalarının həddən artıq tətbiqini dayandırmaq və fermalarda deyil, idxal üzərində nəzarətin həyata keçirilməsini tələb edir. Fermerlər, həmçinin ədalətsiz rəqabəti təşviq etməkdə ittiham olunan Aİ ilə Merkosur arasındakı azad ticarət müqaviləsinin yekun ratifikasiyasının əleyhinədirlər.

### "Qoca qitə"nin ümid yeri sayılan Almaniyaya inam azalır

Bu gün Avropanın ümid yeri kimi baxdığı Almaniyada da iqtisadi inkişaf templəri zəifləyib. Vəziyyətin son dərəcə ciddi olduğu rəsmi səviyyədə etiraf olunur. Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dekabrın 27-də Bundestaqın buraxılması ilə bağlı çıxışında şirkətlərin çətin vəziyyətə düşdüyü və iş yerlərinin risk altında olduğu iqtisadi qeyri-müəyyənlikdən bəhs edib və bu baxımdan növbəti federal hökumətin qarşısında böyük vəzifələr durduğunu bildirib.

Eyni zamanda, aparılan rəy sorğularında, ekspert dəyərləndirmələrində iqtisadi geriləmə prosesinin sürətləndiyinə diqqət çəkilir. "Almaniya iqtisadiyyatı dərin böhran içindədir və yeni il üçün perspektivlər qaranlıqdır". "Bild" qəzetinin məlumatına görə, bu, Kölndəki Alman İqtisadiyyat İnstitutunun (IW) sənaye müəssisələrinin təmsilçiləri arasında apardığı sorğunun nəticələrində əksini tapıb.

Ötən illə müqayisədə 49 biznes birliyindən 31-i mövcud vəziyyəti daha ağır olaraq dəyərləndirib. Vəziyyətin belə olmasının səbəbi kimi enerji, işçi qüvvəsi və xammal üçün yüksək xərclərlə yanaşı, Almaniyada bürokratiya və siyasi xaosun investisiya qoyuluşunu və rəqabətin qarşısını aldığı da göstərilib.

Sorğuda iştirak edən 49 sənaye müəssisəsindən 20-si 2025-ci ildə istehsal həcminin azalacağını proqnozlaşdırıb. Dörd assosiasiya - tökmə zavodları, polad və metal emalı, plastik emalı və poliqrafiya sənayesi dərin tənəzzülə hazırlaşdıqlarını açıqlayıb. Alman İqtisadiyyat İnstitutunun tədqiqatçıları tənəzzülün maşınqayırma, keramika, şüşə, ağac emalı, tekstil, qida və mədən sənayelərində də davam etdiyini bildiriblər.

Ölkədə demoqrafik vəziyyət də pisləşməkdədir. Almaniya hökumətinin açıqladığı "Yaşlanma hesabatı"na əsasən, yaşı 80-dən çox olan əhalinin sayının 6 milyon nəfərdən 2050-ci ilədək 8-10 milyon nəfərə çatacağı gözlənilir. Verilən məlumatlara görə, əhalinin yaşlanması ilə birlikdə qayğıya ehtiyacı olanların sayının da artacağı bildirilir. Bu qəbildən olan şəxslərin sayının 2055-ci ilədək 7,6 milyon nəfərə çatacağı ehtimal edilir.

Hesabatda yaşlıların həyat şəraiti, maddi imkanları, sahib olduqları əmlak, tibbi xidmətlərin əlçatanlığı və yoxsulluq səviyyəsi də nəzərə alınıb. Yaşı 65-dən çox olan əhalinin 17-19 faizinin yoxsulluq təhdidi altında olduğu ehtimal edilir.

### Sağçılar önə keçirlər

İqtisadi gerilələmələr və digər problemlər fonunda sağçı təmayüllərin önə çıxması da bugünkü Avropanın kədərli reallığıdır. Belə vəziyyət əsasən Avropa İttifaqı sakinlərinin Brüsselin mövcud miqrasiya siyasətindən narazılığı, Şərqi Avropadakı müharibədən yorğunluq, eləcə də mərkəzçilərin artan iqtisadi çətinliklərin öhdəsindən gələ bilməməsi ilə bağlıdır.

2022-ci ildən bəri Avropada sağçı və ifrat sağçı partiyalar müxtəlif seçkilərdə əhəmiyyətli uğurlar qazanıblar. Məsələn, Niderlandda 2023-cü ildə Geert Vildersin "Azadlıq Partiyası" qalib gəlib. Sağçıların ən son uğur nümunəsi



Avstriyadır. Burada 2024-cü ildə ifrat sağçı "Avstriya Azadlıq Partiyası" (FPO) parlament seçkilərində tarixi qələbə qazanaraq ilk dəfə birinci yeri tutub və 29,2 faiz səs toplayıb. Nəticədə, 2025-ci il yanvarın 6-da Avstriya Prezidenti Aleksandr Van der Bellen FPO lideri Herbert Kiklyuya yeni hökumətin formalaşdırılmasını tapşırıb.

2024-cü ildə Fransada Avropa Parlamentinə seçkilərdə Marin Le Penin "Milli Birlik" Partiyası güclü nəticə göstərərək ikinci yeri tutub və əhəmiyyətli sayda yer qazanıb. Bundan sonra Fransada iki mərhələdə baş tutan növbədənkənar parlament seçkilərində "Milli Birlik" solçular koalisiyası və Makronun mərkəzçilərindən sonra üçüncü yeri tutub.

Almaniyada da sağçılar revanş götürüblər. Ölkədə aparılan sorğular göstərir ki, "Almaniya üçün alternativ" Partiyası son iki il ərzində tərəfdarlarının sayını 10 faizdən 22 faizə yüksəldib. Sözügedən partiya İkinci Dünya müharibəsindən sonra ilk dəfə Almaniyanın Türingiya vilayətinin parlamentində ən böyük qüvvəyə çevrilib. Almaniyanın şərqindəki Saksoniya federal əyalətində də Landtaqa seçkilərdə ifrat sağçı "Almaniya üçün Alternativ" (AfD) 30,6 faiz, Sara Vaqenknext İttifaqı (BSW) - 11,8 faiz, Sol Partiya - 4,5 faiz səs toplayıb.

Vəziyyətin bu şəkildə davam etməsi Avropa dövlətləri üçün qarşıya yeni çağırışlar çıxarır. Böhran dalğasının genişlənməsi mövcud siyasi hakimiyyətlər və hökumətlər üçün yaxşı heç nə vəd etmir. Əsas sual isə belədir: İfrat sağçıların önə keçməsi ilə Avropa hara gedir?

*Mübariz FEYİZLİ*

# "Sədr"dən növbəti həqarət



Əli Kərimlinin hətta adi müraciət ritorikasında primitiv qaydaları mənimsəyə bilməməsi, onun "siyasi səbatsızlıq" sindromunun daşıyıcısı olmasını təsdiqləyir. Siyasi isterika, psixoloji şəxsiyyət dəyişikliyi, gərginlik onun "siyasi altşüuruna" o həddə siraət edib ki, artıq xalqa lağ obyekti kimi yanaşır. İsterik şəxsiyyət pozuntusu olanlar yaranan ən önəmli problemdə belə dəyişikliyə açıq deyillər (bunu tibbi sorğular da təsdiqləyir!) - siyasi isterikada isə uğursuzluq sindromunun "acısını" çıxmaq üçün müxtəlif auditoriyalara qarşı hücum etmək kimi bir davranış müşahidə olunur. Məhz Əli Kərimlidə olduğu kimi...

Analoji hallar AXCP "sədrinin" son durumunda daha açıq büruzə verilir. Ölkəmizin dünyada baş verən həddindən artıq gərgin kataklimzlərdən itkisiz çıxması, özünün müstəqil siyasi xəttini qorumaq bacarığı, bütün tərəflərlə qeyd-şərtsiz və eyni məsafədə əməkdaşlığn peşəkar səviyyədə inkişaf etdirilməsi Əli Kərimlini yenə də "kor quyu"ya məhkum edib.

**O elə bir siyasi şok keçirir ki....**

Məsələn, özündən başqa heç kimə lazım olmayan açıqlamalarında "Bəs qalib ölkə - Azərbaycanın gündəmi nədir?", "Qalib xalqın xəbəri olsun ki," kimi fikir başlıqlarından istifadə etməklə Kərimli özünün əsl xislətini ortaya qoyur - bu, birmənalı şəkildə xalqın qalibiyyətinin tərənnümü deyil, tam əksinə, qələbəyə istehzadır, qalib xalqı təhqir etmək cəhdidir.

Azərbaycanın son illərdə qazandığı saysız-hesabsız qələbələrin yaratdığı mənəvi ruh yüksəkliyinin altında əzilən Kərimli artıq xalqı özünün hədəfi seçir - bütün anlamlarda düşmən kəsildiyi Azərbaycan cəmiyyətinə qarşı ironik ritorika ilə yanaşır.

Amma onun bu açıqlamasında bir fikir düzdür - "Bizi yalnız biz özümüz xilas edə bilərik". Əli Kərimlini, onun kimi düşünənləri, onun kimi davrananları elə onların özləri xilas etməlidirlər. Amma bu məntiqlə, bu xəyanətlə, bu təfəkkürlə... Çox çətin görünür...

*MƏNSUR*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




*İdman*

## Şahdağda Xizək Alpinizmi üzrə Dünya Kubokunda ilk günün qalibləri bəlli olub



“Şahdağ” Turizm Kompleksində keçirilən Xizək Alpinizmi üzrə Dünya Kubokunda ilk gün başa çatıb.

AZƏRTAC xəbər verir ki, ilk yarış günündə idmançılar arasında sprint növü üzrə mükafatçılar bəlli olub.

Qadınlarda fransalı Emili Harrop fəxri kürsünün ən yüksək pilləsində qalxıb. İsveçrəli Mariani Fatton ikinci, fransalı Perillat Pissiy üçüncü yeri tutub.

Kişilərdə isə isveçrəli Lita Aron qızıl, həmyerlisi Robin Bussard gümüş, ispaniyalı Martines Ferrer bürünc medala sahib çıxıb.

Dünya Kubokunda Fərdi Neytral İdmançılar (AİN) olmaqla 26 ölkədən 130-a yaxın idmançı qüvvəsini sınayır. Atletlər yanvarın 11-də vertikal və 13-də isə individual növlər üzrə güclərini yoxlayacaqlar.

Qeyd edək ki, Dünya Kuboku 2026-cı ildə keçiriləcək Qış Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün kvalifikasiya yarışlarından biri hesab edilir. Gənclər və İdman Nazirliyinin dəstəyi, Beynəlxalq Xizək Alpinizmi Federasiyasının, Azərbaycan Qış İdman Növləri Federasiyasının və Şahdağ Turizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən yarışa yanvarın 13-də yekun vurulacaq.

## Baş katib: Hədəfimiz 2027-ci ildə xizək alpinizmi üzrə dünya çempionatına ev sahibliyi etməkdir




İlk dəfə olaraq Xizək Alpinizmi üzrə Dünya Kubokunun Şahdağda keçirilməsi qürurverici haldır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Qış İdman Növləri Federasiyasının baş katibi Günel Bədəlova turnirin açılış mərasimindən sonra jurnalistlərə açıqlamasında deyib.

Baş katib bildirib ki, Qazaxıstan və Qətəri təmsil edən idmançılar ilk dəfə olaraq Xizək Alpinizmi üzrə Dünya Kubokunda iştirak edirlər: “Yarışda 26 ölkədən 108 atlet mübarizə aparır. Onlardan 36-sı qadın, 72-si isə kişidir. Ümid edirik ki, Azərbaycan Qış İdman Növləri Federasiyası bununla kifayətlənməyəcək və daha bir neçə mötəbər idman yarışlarına ev sahibliyi edəcək. Biz artıq Beynəlxalq Xizək Alpinizmi Federasiyasına xizək alpinizmi üzrə Avropa çempionatının 2026-cı ildə Azərbaycanda keçirilməsi üçün müraciət etmişik. İnanırıq ki, seçimlərdən uğurla keçəcək və gələn il üçün turnirin hazırlıqlarına start verəcəyik. Həmçinin hədəfimiz 2027-ci ildə dünya çempionatına ev sahibliyi etməkdir”.

Qeyd edək ki, Dünya Kuboku 2026-cı ildə keçiriləcək Qış Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün kvalifikasiya yarışlarından biri hesab edilir. Gənclər və İdman Nazirliyinin dəstəyi, Beynəlxalq Xizək Alpinizmi Federasiyasının, Azərbaycan Qış İdman Növləri Federasiyasının və Şahdağ Turizm Mərkəzinin təşkilatçılığı ilə bu gün başlayan yarışa yanvarın 13-də yekun vurulacaq.

## Azərbaycan basketbol millisinin Belçika və Polşa ilə oyunlarının yeri və saatı açıqlanıb



Qadın basketbolçulardan ibarət Azərbaycan millisinin Avropa çempionatının seçmə mərhələsində keçirəcəyi son iki oyunun məkanı və saatları bəlli olub.

Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Evren Alkayının rəhbərlik etdiyi kollektiv fevralın 6-sı Bakı vaxtı ilə saat 23:15-də Ostendə şəhərində Belçika ilə qarşılaşacaq. Komandamız bundan üç gün sonra isə saat 17:00-da doğma meydanda Polşanı sınağa çəkəcək.

# Təşkilatlanma sahəsində yeni mərhələ

Azərbaycanın maddi-mədəni irsinin xaricdə tanıdılması, eləcə də haqq səsinin dünyaya çatdırılmasında diasporumuzun xüsusi yeri var. İllər ötdükcə Azərbaycan diaspor siyasətini yeni meyarlarla zənginləşdirib. Nəticədə, xaricdəki Azərbaycan icmalarının fəaliyyətində, xüsusilə, təşkilatlanma sahəsində keyfiyyətcə yeni mərhələ başlayıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

### Azərbaycan evlərinin sayı artırılacaq

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, İraq, Livan, Böyük Britaniya və Danimarkada Azərbaycan evinin açılması nəzərdə tutulur, bu istiqamətdə danışıqlar gedir. O, qeyd edib ki, hazırda Azərbaycan evlərinin açılması ilə bağlı müraciətlər çoxdur: “İraqda, Livanda Azərbaycan evinin açılışı nəzərdə tutulur. Ancaq bu, o demək deyil ki, onlar iki ay sonra açılacaq. Böyük Britaniya və Danimarkada da Azərbaycan evinin açılması planlaşdırılır. Həmçinin Almaniyanın Ştutqart şəhərində, ABŞ-nin bir sıra ştatlarında Azərbaycan evlərinin açılması ilə bağlı müraciətlər var. Bunlarla yanaşı, Cənubi Koreyada Azərbaycan evinin genişləndirilməsi nəzərdə tutulur, çünki Azərbaycan icmasının sayı artıb”.

Onun sözlərinə görə, Azərbaycan evləri daim dövlət tərəfindən maliyyələşə bilməz: “Azərbaycan evləri ilə bağlı bəzi maliyyə və texniki məsələlərlə əlaqədar öz üzərimizə öhdəlik götürürük. Lakin həmin evlər daim Azərbaycan dövləti tərəfindən maliyyələşə bilməz. Müəyyən müddətdən sonra əgər icma, həqiqətən də, Azərbaycan evinin fəaliyyətini davam etdirmək istəyirsə, mütləq icma üzvləri də dəstək olmalıdır.

Ona görə də yeni açılan Azərbaycan evlərinin hamısına müəyyən müddət verilir, həmin müddətdən sonra maliyyə yardımına yenidən baxılır. O müddətdə onlar öz fəaliyyət mexanizmlərini həyata keçirməlidirlər. Yəni Azərbaycan evinin açılması hansısa Azərbaycan evinin bağlana bilməyəcəyi mənasına gəlmir”.

Komitə sədri vurğulayıb ki, Azərbaycan evlərinin gələcək fəaliyyəti və inkişafı hər zaman müzakirə predmeti ola bilər.

### 300-dən çox diaspor təşkilatımız var

Fuad Muradovun sözlərinə görə, Azərbaycanın müxtəlif ölkələrdə 300-dən çox diaspor təşkilatı və dünya azərbaycanlılarını birləşdirən 15 Koordinasiya Şurası fəaliyyət göstərir. O, qeyd edib ki, Azərbaycanın ilk diaspor təşkilatının yaşı 50-ni keçib: “Bu gün diasporun təşkilatlanması daha sürətlə gedir və dövrün tələbləri səviyyəsində inkişaf edir. Təxminən 70 ölkədə daimi fəaliyyətdəyik, lakin daha çox ölkədə soydaşlarımız yaşayırlar, sadəcə olaraq onlar hələ ki digərləri qədər təşkilatlanmayıblar”.

Komitə sədrinin sözlərinə görə, Nigeriya, Kolumbiya, Meksika kimi ölkələrdə yeni formalaşan Azərbaycan icmaları var: “İslandiyada bir neçə azərbaycanlı ailə yaşayır və onlar da diaspor təşkilatı yaradaraq qeydiyyatdan keçiriblər. Trinidad və Tobaqoda mədəniyyət-incəsənət nümayəndələrimiz yaşayır, onların da diaspor təşkilatı yaratmaqla bağlı təklifləri var”.

Koordinasiya şuralarının fəaliyyətindən də bəhs edən F.Muradov diqqətə çatdırıb ki, hazırda əsas hədəf şuraların olduğu ölkələrin parlamentlərində müşahidəçi kimi qeydiyyata alınmasıdır: “Bizim təşkilatlarımız artıq Avropa Şurası və Avropa Parlamentində müşahidəçi statusunda iştirak edə bilirlər. Onların Birləşmiş Millətlər Təşkilatında da aktiv olmaları istiqamətində ciddi işlər görülür”.



### Erməni diasporu sülh istəmir

Fuad Muradov həmçinin qeyd edib ki, erməni diasporu sülh istəmir və Ermənistanın maraqlarını nəzərə almır. O, bildirib ki, xaricdə Azərbaycana qarşı atılan addımlarda erməni diasporunun böyük rolu var: “Amma eyni zamanda, bəzi siyasi dairələr var ki, onlar özləri də məqsədli şəkildə erməni diasporunun işinə dəstək verirlər. Bunu biz Fransada tam aşkar görürük. Təkcə Xurşidbanu Natəvanın heykəlinə qarşı olan saygısızlıq göstərir ki, bu, sadəcə erməni diasporunun deyil, həm də Fransada Azərbaycana qarşı olan siyasətçilərin yanaşmasıdır”.

F.Muradovun sözlərinə görə, erməni diasporunun belə yanaşması onu nümayiş etdirir ki, onlar sülh istəmirlər və Ermənistan maraqlarını nəzərə almırlar: “Öz maraqlarından çıxış edirlər. Ona görə də əksər diaspor rəhbərlərinin Ermənistana girişi qadağan olunub. Erməni diaspor təşkilatlarının fəaliyyətinin kökündə dağıdıcılıq durur və bu təşkilatlar, əsasən, korrupsiya üzərində qurulub”.

*Yeganə BAYRAMOVA*

# Gələcəyə qoyulan sərmayə...

## Dünya Qoruqlar və Milli Parklar Günüdür

*Yeganə BAYRAMOVA*

Bəzən iş yorğunluğundan, səs-küydən uzaq durmaq istədiyimiz zaman sakit, havası təmiz olan, əsas da yaşıllıq yerlərdə dincəlməyə üstünlük veririk. Təbiətin flora və faunanı qorumaq üçün mühafizə rejiminə ehtiyacı var. Bunun üçün qorunan təbii məkanlar mövcuddur. Belə məkanlar arasında milli parklar və qoruqlar üstünlük təşkil edir. Milli parklarda həm təbiət kompleks şəkildə qorunur, həm də insanların əraziyə girmələri, təbiətlə tanış olmaları, estetik zövq almalarına imkan yaradılır.

Yeri gəlmişkən, bu gün Dünya Qoruqlar və Milli Parklar Günüdür. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. 1997-ci ildən isə bu tarix Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə hər il qeyd olunur.

Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng biomüxtəliflik və landşaft komplekslərini əhatə edir. Ümumiyyətlə, ölkəmizdə milli parkların yaradılma tarixi 2003-cü ilə təsadüf edir. 2003-cü ildən başlayaraq Azərbaycanda Milli Park statuslu təbiət əraziləri yaradılıb. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsəd unikal təbiət komplekslərinin, landşaftın, Qırmızı kitaba düşmüş, nəsli kəsilməkdə olan fauna flora növlərinin mühafizəsindən ibarətdir.

Hazırda ölkəmizdə 893 min ərazini əhatə edən xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsi mövcudur. Bu, ölkə ərazisinin ümumilikdə 10,3 faizini təşkil edir. Bunun da 3,7 faizi Milli parkların payına düşür. 1925-ci ildə Azərbaycanda ilk dəfə Göygöl Dövlət Təbiət Qoruğu yaradılıb. 1929-cu ildə Qızılağac və Zaqatala qoruqları, 1936-cı ildə Hirkan qoruğu təsis edilib. 1958-ci ildən, 1990-cı ilə kimi qoruqların yaradılması prosesi davam etdirilib və bir neçə ildən bir yeni qoruq təşkil edilib. 1990-cı ildə Altıağac Dövlət Təbiət Qoruğu yaradılıb. 2003-cü ildə Naxçıvanda Şahbuz, 2004-cü ildə isə Eldar şamı, 2007-ci ildə Bakı və Abşeron yarımadasının Palçıq Vulkanları Qrupu, 2008-ci ildə isə Korçay Dövlət Təbiət Qoruğunun əsası qoyulub. Eyni zamanda 2003-cü ildə Türyançay, Pirqulu, İlisu, Qarayazı, İsmayıllı, 2008-ci ildə isə Zaqatala Dövlət Təbiət qoruqlarının əraziləri 2-3 dəfədən çox genişləndirilib. Onu da qeyd edək ki, ölkəmizdə 2003-cü ilə kimi Milli parklar mövcud olmayıb. 2003-cü ildən başlayaraq ETSN tərəfindən Ordubad, Şirvan, Ağ göl, 2004-cü ildə Hirkan, Altıağac, 2005-ci ildə Abşeron, 2006-cı ildə Şahdağ, 2008-ci ildə isə Göygöl Milli parkları yaradılıb.




Milli parklarımızın hər birinin özünəməxsus zəngin bioloji müxtəlifliyi əhalinin ekoloji maariflənməsində böyük əhəmiyyət daşıyır. İnsanlar milli parklarımızın bioloji resurslarının, zəngin flora və faunasının ətraf mühitə müsbət təsir göstərdiyinin, əhalidə ruh yüksəkliyi yaratdığının, onlara müsbət enerji verdiklərinin şahidi olub, bu tarixi sərvətin, zənginliklərin qorunub saxlanılmasının həyati vacibliyini dərk edirlər.

Milli parklar və qoruqlar biomüxtəlifliyin qorunması, planetimizin ekosistemlərinin sağlamlıq və davamlılığının təmin olunmasında mühüm vasitədir. Onlar gələcəyə qoyulan sərmayədir. Milli parklar və qoruqlar həmçinin gələcək nəsillərin həyatın zənginliyi və müxtəlifliyindən faydalanmasını təmin edir...


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3586
Sifariş: 3013
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova